# Üçtərəfli görüşün əsas məqsədi regionda sülhün qarşısını almaqdır

"Cənubi Qafqazın lider dövləti olan Azərbaycan regionda tezliklə sülhün bərqərar olunmasında maraqlıdır. Dövlətimiz bu məqsədlə Ermənistana sülh sazişi imzalamağı təklif edib. Ölkəmizin mövqeyi bundan ibarətdir ki, Cənubi Qafqaz sülh və əməkdaşlıq məkanına çevrilməlidir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, lakin müəyyən beynəlxalq güclər regionumuzda gərginliyin davam etməsində maraqlıdırlar. Bunun üçün də Ermənistandan bir alət kimi istifadə olunur. Xüsusilə Qərb dairələri hansısa vədlər verməklə rəsmi İrəvanı tamamilə öz təsir dairəsinə salmağa çalışır və Ermənistan vasitəsilə Cənubi Qafqaza kök salıb möhkəmlənmək istəyirlər. Aprelin 5-də Brüsseldə nəzərdə tutulan Ermənistanın baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen və ABŞ dövlət katibi Entoni Blinkenin konfrans formatında birgə görüşü də bu planın tərkib hissəsidir.

O qeyd edib ki, Brüsseldə keçirilməsi nəzərdə tutulan ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşünün əsas məqsədi regionda sülhün bərqərar olmasının qarşısını almaqdır. Aİ-nin "mülki missiya" adı altında Ermənistana ezam etdiyi kəşfiyyat qrupunun sayının artırılması, bu qrupun xarakterinin dəyişməsi, üstəlik, ABŞ-nin də məsələyə aktiv müdaxiləsi regiona yeni gərginliklərin anonsunu verməkdədir. Birmənalı şəkildə vurğulanmalıdır ki, Aİ və ABŞ-nin tutduğu mövqe bu gün konstruktivlikdən tamamilə uzaqdır. Hətta bu görüşdə Ermənistana təhlükəsizlik təminatının veriləcəyi də bildirilir. Bu da Qərbin yeni Ukrayna ssenarisi yaratmaq cəhdi kimi qiymətləndirilə bilər.



S.Fətəliyevanın sözlərinə görə, Azərbaycan dəfələrlə Avropa İttifaqının, xüsusilə də onun bəzi üzv dövlətlərinin regionumuza münasibətdə müəyyən yanaşmaları və fəaliyyətləri ilə bağlı mövqeyini açıq şəkildə ifadə edib: "Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesi dövlətimiz tərəfindən irəli sürülüb və burada o, münaqişədən sonrakı normallaşmanın bütün məsələlərində hər zaman konstruktiv mövqe nümayiş etdirib. Bundan əlavə, 6 oktyabr 2022-ci il tarixli dördtərəfli Praqa görüşü zamanı delimitasiya edilməmiş sərhədin Ermənistan tərəfi boyunca Azərbaycan və Ermənistan arasında etimadın yaradılmasına töhfə verməsi güman edilən 40 nəfər mülki monitorinq ekspertindən ibarət qısamüddətli Avropa İttifaqı Monitorinq Potensialının yerləşdirilməsinə razılıq verilməsi Azərbaycan tərəfindən xahiş olunub. Təəssüf ki, ilkin iki aylıq müddətdən sonra Azərbaycanın razılığı olmadan bu qrup uzadılmış müddət və daha çox müşahidəçi sayı ilə Aİ-nin Ermənistandakı missiyasına çevrilib. Bu missiya o vaxtdan etibarən anti-Azərbaycan təbliğat aləti kimi fəal şəkildə istismar edilməkdədir".

Komitə sədrinin müavini qeyd edib ki, başda Fransa olmaqla, Ermənistanın hərbiləşdirilməsinə yönəlmiş və daha böyük hərbi təchizatlara dair yeni vədlərin yer aldığı kampaniya ciddi narahatlıq doğurur. Aİ-nin digər bir üzvü Yunanıstanın bu yaxınlarda Ermənistanla hərbi əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı bəyanatları buna sübutdur. Bundan əlavə, Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi planları və aprelin 5-də keçiriləcək toplantının hərbi komponentləri nəzərdə tutduğuna dair məlumatlar əlavə narahatlıq doğurur və regionda sülh quruculuğu səylərinə böyük təhdiddir. "Ermənistandakı revanşist əhvali-ruhiyyə fonunda Vaşinqton və Brüssel tərəfindən bu kimi açıq ermənipərəst mövqe erməni tərəfini yeni hərbi təxribatlara sövq edə bilər. Əvvəlcədən açıqlanmasa da, Brüsseldə keçiriləcək görüşdə məqsəd faktiki olaraq hərbi paktdan gedir və bu pakt regionda sabitliyin və sülhün bərqərar olmasına qarşı yönəlib", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, ABŞ və Avropa regionumuzu yeni qeyri-sabitliyə və müharibəyə sürükləməyə çalışır. Qərbin öz geosiyasi maraqları naminə bu təhlükəli davranışı region ölkələrinin maraqlarına xidmət etmir. Xüsusilə, bu amil Ermənistanın özü üçün çox ciddi problemlər yaradacaq. Ona görə də Ermənistan hansısa qüvvələrin əlində alət olmamalı, özünün də gələcəyi naminə regionda sülh və əməkdaşlığa xidmət edən siyasət yürütməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.3.